AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE RUSSIA-UKRAINE WAR AND ITS HISTORICAL CONTEXT AFTER 2022

**Ramil Usubov**[1]
**Qizilgul Abbasova**[2]

**UDC:** 327.5:355.4(470+477)"2022/..."
**LBC:** 66.4(2Rus):66.4(4Ukr):63.3(2Rus)64
**HoS:** 129
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.47-57

**Keywords:**

War,
Regional security,
Sanctions,
Territorial annexation,
Military operations,
Mediation

## ABSTRACT

The roots of the Russia–Ukraine war that began in 2022 extend back to the period before the formation of the Soviet Union. The long-standing dynamics of tense relations gradually pushed Ukrainian society toward a pro-European political orientation, which was not unequivocally accepted by Russia. In the early years of the war that started in 2022, Russia held a significant military advantage. However, this momentum was curtailed by support provided to Ukraine by Europe and the United States. From 2024 onward, the war began to enter a phase of stagnation. After Donald Trump was elected president for a second time, active military operations gave way to a degree of de-escalation and a renewed negotiation process. Nevertheless, the often unrealistic demands of the parties involved have continued to prolong this process.

[1] Master's student at Baku State University; Baku, Azerbaijan
E-mail: ramil.usubov23@gmail.com
https://orcid.org/0009-0004-2587-5580
[2] Doctor of Philosophical Sciences, Professor,
Department of Social Work, Baku State University; Baku, Azerbaijan
E-mail: q.abbasova@mail.ru
https://orcid.org/0000-0003-4938-5637
**To cite this article:** Usubov, R., & Abbasova, Q. [2026]. The Russia-Ukraine War and its Historical Context After 2022. *History of Science journal*, *7*(1), pp.47-57.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.47-57

***Article history:***
*Received: 28.11.2025*
*Revised: 29.12.2025*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 2022-Cİ İLDƏN SONRA RUSİYA UKRAYNA MÜHARİBƏSİ VƏ TARİXİ KONTEKSTİ

**Ramil Usubov**[1]
**Qızılgül Abbasova**[2]

**UOT:** 327.5:355.4(470+477)"2022/..."
**KBT:** 66.4(2Rus):66.4(4Ukr):63.3(2Rus)64
**HoS:** 129
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.47-57

**Açar sözlər:**

Müharibə,
Regional təhlükəsizlik,
Sanksiya,
Torpaq ilhaqı,
Hərbi əməliyyat,
Vasitəçilik

## ANNOTASİYA

2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsinin təməli SSRİ yaranmasına qədər uzanır. İllər boyu davam etmiş gərgin münasibətlər dinamikası ukrayna xalqını Avropa yönümlü siyasətə yönəltmişdi. Bu isə Rusiya tərəfindən birmənalı qarşılanmamışdı. 2022-ci ildə başlayan müharibədə ilk illər Rusiya böyük üstünlüyə malik idi. Lakin bunun önü Ukraynaya Avropa və ABŞdan gələn dəstək ilə kəsilmişdi. 2024-cü ildən etibarən isə müharibə artıq durğunlaşmağa başlamışdı. Trumpın ikinci dəfə prezident seçilməsindən sonra isə aktiv hərbi əməliyyatlar öz yerini Müəyyən yumşalma və danışıqlar prosesinə verdi. Lakin iştirakçıların absürd tələbləri bu prosesi uzadır.

[1] Bakı Dövlət Universitetinin magistrantı; Bakı, Azərbaycan
E-mail: ramil.usubov23@gmail.com
https://orcid.org/0009-0004-2587-5580
[2] Fəlsəfə üzrə elmlər doktoru, professor,
Sosial iş kafedrası, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: q.abbasova@mail.ru
https://orcid.org/0000-0003-4938-5637
**Məqaləyə istinad:** Usubov, R., & Abbasova, Q. [2026]. 2022-ci ildən sonra Rusiya Ukrayna Müharibəsi və Tarixi Konteksti. *History of Science jurnalı*, *7*(1), səh.47-57.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.47-57

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 28.11.2025*
*Yenidən baxılıb: 29.12.2025*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# РОССИЙСКО-УКРАИНСКАЯ ВОЙНА И ЕЁ ИСТОРИЧЕСКИЙ КОНТЕКСТ ПОСЛЕ 2022 ГОДА

**Рамиль Усубов**[1]
**Кызылгюль Аббасова**[2]

**УДК:** 327.5:355.4(470+477)"2022/..."
**ББК:** 66.4(2Рос):66.4(4Укр):63.3(2Рос)64
**HoS:** 129
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.47-57

**Ключевые слова:**

Война, Региональная безопасность, Санкции, Аннексия территории, Военные действия, Посредничество

## АННОТАЦИЯ

Корни российско-украинской войны, начавшейся в 2022 году, уходят в период, предшествующий созданию СССР. Длительная динамика напряжённых отношений постепенно направила украинское общество к проевропейскому курсу, что не было однозначно воспринято Россией. В первые годы войны Россия обладала значительным военным преимуществом, однако оно было сдержано поддержкой Украины со стороны Европы и США. С 2024 года война начала переходить в стагнационную фазу. После повторного избрания Дональда Трампа президентом активные военные действия сменились определённым смягчением и процессом переговоров. Тем не менее абсурдные требования сторон продолжают затягивать этот процесс.

[1] Магистрант Бакинского государственного университета; Баку, Азербайджан
E-mail: ramil.usubov23@gmail.com
https://orcid.org/0009-0004-2587-5580
[2] Доктор философских наук, профессор,
Кафедра социальной работы, Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: q.abbasova@mail.ru
https://orcid.org/0000-0003-4938-5637
**Цитировать статью:** Усубов, Р., & Аббасова, К. [2026]. Российско-Украинская Война и её Исторический Контекст После 2022 Года. *Журнал History of Science, 7*(1), с.47-57.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.47-57

***История статьи:***
*Поступила: 28.11.2025*
*Переработана: 29.12.2025*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Soyuq Müharibənin başlanması ilə dünyada iki güclü dövlət formalaşdı. İllər boyu davam edən bu münaqişədə tərəflər hər nə qədər eyni gücdə kimi görünsədə ABŞ daha çox üstünlüyə malik idi. İlk olaraq ikinci dünya müharibəsindən sonra ABŞ iqtisadi baxımdan xeyli güclənmişdi. Buna görə də bir çox yardım planı əsasında həm öz müttəfiqlərini artırır həm də yardım etdiyi dövlətlər ilə bərabər öz iqtisadi gücünü daha da möhkəmləndirirdi. SSRİ isə zəbt etdiyi yerlərdə kukla rejimlər quraraq onları özünə asılı hala salırdı. Belə olduğu halda bütün ittifaqın iqtisadi gücü kəndli və yerli xalqın üzərinə düşürdü.

Digər bir tərəfdən isə çox saylı müxtəlif xalqı bir ittifaq daxilində birləşdirmək bir müddət sonra ayrılıqlara səbəb olurdu. SSRİ-i zəiflədikcə müstəqillik idealları daha artırdı. Bundan sonra isə Əfqanıstandakı məğlubiyyət və Qorbaçovun hakimiyyətə gəlməsi SSRİ-nin məğlubiyyətini sürətləndirirdi [BBC Bitesize, 2021].

Qorbaçov SSRİ-nin rifahı üçün müəyyən qədər demokratiya yönümlü islahatlar edilməsini istəyirdi. Zəifləməyə başlamış SSRİ üçün bu zəruri bir addım idi. Lakin daim represiya və ağır basqı ilə öz davamiyyətini sürdürmüş SSRİ-i üçün bu həmlələrin nəticəsi faciəvi oldu. SSRİ-i daxilindəki xalqlar artıq öz müstəqilliklərini arzulamağa və buna görə mübarizə etməyə başlamışdılar. Bütün bunlar isə SSRİ-nin dağılmasına və ABŞ-ın qalib gəlməsinə səbəb oldu.

Uzun illərdi davam edən ikiqütblü dünya sistemi artıq SSRİ-nin dağılması ilə yerini təkqütblü dünya sisteminə vermişdir. ABŞ artıq dünyanın ən güclü dövlətinə çevrilmişdi və faktiki olaraq istədiyini edəcək gücə sahib idi.

Lakin bütün bunlara qismətdə daha bir çox problem də var idi. ABŞ-ın iqtisadi gücü demək olarkı bir illuziyadan ibarət idi. Həqiqətən Amerika güclü bir iqtisadiyyata malik idi. Lakin bura da bir çox əksiklik var idi. Soyuq müharibə bitimində Avropa və asiya dövlətləri hələ də ikinci dünya müharibəsinin törətdiyi problemlərdən əziyyət çəkirdi və bu isə ABŞ-ın dünya iqtisadi bazarına hökm etməsinin ən böyük səbəblərindən biri idi [Lieven, 2011]. 1991-ci ildən sonra ABŞ qazandığı bu uğur ilə düzgün istifadə edə bilmədi.

## 2.Ukrayna dövlətinin Avropa yönümlü siyasətinin konseptual əsası

Günümüzdə Rusiya-Ukrayna münaqişəsi regional bir müharibə kimi analiz oluna bilməz. Təsir etdiyi əhate dairə baxaraq bu münaqişənin beynəlxalq bir problemə çevrildiyini görərik. Bu iki dövlət eyni tarixi kimliye malikdir. Lakin SSRİ-nin ağır və basqı dolu hakimiyyəti ukrayna xalqına qanlı qətliamlar yaşatmışdı.

Stalin hakimiyyətdə olduğu illər ərzində saysız hesabsız qətliamlara səbəb olmuşdur. Ukrayna 1930-cu ilə qədər kənd təsərrüfatı və əkin sahəsində Avropada şöhrət qazanmışdı. Hətta Ukraynanın tək başına SSRİ-nin bütün qida ehtiyacını ödəyə biləcəyi qeyd olunurdu. Lakin Stalin Ukrayna xalqının belə bir şəraitdə kommunizm ideologiyasını kifayət qədər mənimsəmədiyini düşünürdü. Buradakı yüksək milliyətçiliyi SSRİ-yə qarşı təhdid olaraq görürüdü. Məhz buna görə torpaqlar kütləvi şəkildə müsadirə olundu. Bu isə həmin regiondaki kənd təsərrüfatıda ciddi geriləməyə səbəb oldu. Daha sonra baş verən aclıq zamanı isə dövlət xalqdan məcburi şəkildə qida topladı. Bu zaman Ukrayna xalqı kütləvi aclıqdan əziyyət çəkməyə başladı. Hətta aclığın yerli xalq arasında yamyamlığa səbəb olduğu deyilir.

Bu hadisə holodomor olaraq adlanır. 1932-1933 illəri əhate edən bu hadisə bəzi Avropa ölkələrində üçün genosid olaraq qəbul olunur. Ukrayna xalqının ruslara olan nifrəti bu zamandan başkayır.

SSRİ dağıldıqdan sonra NATO yaranan yeni dövlətləri öz tərkibinə qatmaq üçün addımlar atmağa başlamışdı. İlk zamanlar Rusiya buna müdaxilə etmədi. Ukrayna müstəqillik əldə etdiyi ilk zamandan etibarən Avropa yönümlü siyasət güdürdü. Yeni yaranmış Rusiya ilk vaxtlar bu prosesə qarşı olsa belə müdaxilə edə bilmirdi.

2010-ci ildə hakimiyyətə gələn Yanukoviç əsasən Rusiya yönümlü siyasət güdürdü. Ukraynanın xarici siyasətini bu minvalda tənzimləyən Yanukoviç Ukrayna xalqı tərəfindən etirazla qarşılanırdı. Ukrayna xalqı daim Avropa birliyinə üzv olmaq istəyirdi və bu çərçivədə hərəkət etməyən Yanukoviç bir müddət sonra etiraz aksiyaları ilə üzləşdi.2013-2014 zamanı Yanukoviç Avropa ittifaqı ilə assosasiya müqaviləsini imzlamadı. Bundan sonra o ukrayna xalqı tərəfində Hakimiyyətdən endirildi. Rusiya bu zaman Ukraynanın avropa ilə olan yaxın əmədaşlığını və daxili qeyri-sabitsizliyi fürsət bildi. 2014-cü ildə Krım yarımadasında Rusiya lehinə nümayişlər başladı. Daha sonra naməlum silahlı qruplar hökümət binasını ələ keçirdi. 2014-cü il mart ayında Krımın Rusiyaya qoşulması hakkında referendum keçirildi və 97 faiz ilə Krım Rusiyaya qoşuldu. Bir çox beynəlxalq aktor bu referendumu qeyri-qanuni hesab edir [Britannica, 2022]. Daha sonra isə iki dövlət arasında müharibə başladı. Rusiya bu hərbi qarşıdurma zamanı bir çox üstünlüyə malik idi.

**3.Müasir mərhələdə Rusiya-Ukrayna münasibətlərinin transformasiyası**

2014-cü ildə iki dövlət arasında atəşkəs əldə olundu. Bundan sonra sonra iki dövlət arasındakı gərginlik özünü bütün sferada göstərirdi. 2022-ci ilə qədər heç bir hərbi müdaxilə baş vermədi [Britannica, 2022]. 2022-ci ilin əvvəlində Rusiya Ukrayna sərhəddinə tank və uzunmənzilli silahlı ordu yerləşdirdi. Bu hadisədən sonra ABŞ prezidenti Joe Biden Putin ilə online görüş keçirdi. Bu görüş zamanı Biden əgər Rusiya ordusu Ukrayna ərazisinə daxil olsa ağır iqtisadi və siyasi sanksiyalara məruz qalacağını bildirdi [Adrienne, 2022]. 2022-ci il fevralın 21 Putin Donetsk və Luhansk-ın müstəqilliyini tanıdı.

2022-ci 24 fevralda Rusiya Ukrayna ilə müharibəyə başladı. Müharibənin ilk günü Rusiya gəmiləri Qara dənizdən Ukraynaya hücum etdi və oranı bombardıman atəşinə tutdu. 13 Ukrayna əsgəri hər nə qədər mübarizə aparmağa çalışsada sonda qətlə yetirildilər. Müharibədən dərhal sonra Zelenski 18-60 yaş aralığındakı vətəndaşlara ölkədən çıxışı qadağan etdi. Demək olarki bütün Avropa ölkələri Ukraynaya maddi və hərbi yardım göndərməyə başladı. Yüksək səviyyəli texnologiyaya malik silah və ləvazimat, qida və tibbi yardım göndərildi. Həmçinin ABŞ milyar dollar həçmində maddi və hərbi yardım da göndərdi [Adrienne, 2022].

Rusiya Ukraynaya əsasən 3 istiqamətdə hücum edirdi. Onun əsas məqsədi müharibəni tez bir zamanda bitirmək və buradakı əraziləri nəzarət altına almaq idi. Rusiyanın Bu müharibəyə başlamasında bir neçə əsas səbəb var idi. Bunlardan biri Ukraynanın Nato ilə olan əlaqəsi idi. 2014-cü ildən etibarən Ukrayna NATO ilə aktiv təlimlərdə iştirak edir və dəstək alırdı. Rusiya bu münasibəti NATO-nun şərqə genişləməsi kimi qiymətləndirirdi. Rusiya kimi bir dövlət üçün onun əhatə dairəsində olan regionda belə bir hadisənin olması onun təhlükəsizliyinə zidddir

Digər bir səbəb Rusiya və Ukrayna xalqının paylaşdığı tarix idi. 988-ci ildə Böyük Vladimr prvoslav dini qəbul edərək Slayvan xalqını bir din altında birləşdirdi. Monqol İşğalından sonra onların bir qismi Moskva knyazlığı adı altında yenidən birləşdi. Digər kənar tayfalar isə başqa güclərin təsiri altında düşdü [Conant, 2023]. Ukrayna xalqı həmin kənarda qalmış tayfalardan idi. Buna görə də Russia Ukrayna dövlətini özlərində biri kimi qəbul edir və bunun işğalı tezləşdirəcəyinə inanırdı.

Lakin Ukrayna xalqı təxmin olunandan daha yaxşı mübarizə apardı. Rusiya ilk vaxtlar sürətlə torpaq işğal etsədə Ukrayna ordusu tez bir zamanda geri dönüş edirdi. Həmçinin yerli Ukrayna xalqı Rus ordusunu xoş qarşılamadığına görə zəbt olunan ərazilərdə daimi və ya stabil bir idarə etmə qurmaq olmurdu. Bu Rusiya ordusuna kifayət qədər dəstəyin getməsinin qarşısını alırdı. Beynəlxalq sfera Rusiyanı cinayət, qətl, təcavüz, işgəncə ilə günahlandırırdı. Rusiya ordusunun yerli xalqdan qida və digər ləvazimatları zor güc ilə aldığını qey edirdi. Bundan başqa Rusiya Ukrayna ərazisindəki xəstəxana, məktəb, yaşayış yerlərinə hücum etdiyinə görə beynəlxalq aləmdə qınaq mərkəzinə çevrilmişdi.

İyun ayında Ukrayna ABŞ-ın göndərdiyi ləvazimat və silah dəstəyi ilə nisbətən öz torpaqlarını müdafiə edə bilirdi. Bu zaman ərzində isə Rusiya ordusu Luhansk bölgəsi boyu bütün ərazilərdə öz nəzarətini təmin etmişdi. Rusiya qısa bir zamanda Ukrayna ölkəsinin şərq hissəsini işğal etmişdi.

Bu hadisə bir çoxları üçün üçüncü dünya müharibəsinin başlangıcı idi. Bir çox dövlət bu hadisədən sonra kənkin silahlanmaya və güclərini artırmağa çalışdı. Lakin Avropa Rusiya ilə birdəfəlik müharibəyə girməkdən qaçınırdı. Daha çox Ukraynaya yardım edərək Rusiyanı zəiflətmək istəyirdilər.

2022-ci il 24 fevral tarixində Rusiya federasıyası müharibəyə başladığı zaman Putin televiziyada çıxış etdi. Bu çıxış zamanı əsasən NATO-nun agresiv genişləməsini qınadı. Amerikanın sülh yaratma məqsədiylə etdiyi bütün hərəkətlərin uğursuzluqla nəticələndiyini qeyd etdi. İraq, Suriya, Libya kimi ölkələri misal gətirdi. ABŞ müəyyən səbəblər ilə bu dövlətlərin daxili idarəetməsinə qarışdı və daim sülh adı altına sığınırdı. Lakin bütün bu dövlətlər uzunmüddətli vətəndaş müharibəsi ilə üzləşdi [United Nations Security Concil, 2022, s.3]. Hətta Putin İraq məsələsinə diqqət çəkdi və Amerikanın bu torpaqlara kimyəvi silah təhlükəsi səbəbindən müdaxil olduğunu lakin orada heç bir kimyəvi silahın tapılmadığını qeyd etdi. Bir digər vacib məqam isə Putin-in bu prosesi hərbi əməliyyat olaraq adlandırması idi. Rusiya hər nə qədər güclü dövlət olsa da xaricdən gələn güclü basqı və sanksiyalardan və beynəlxalq sferadakı təzyiqdən çəkinirdi. Buna görə o bu prosesə düzgün bir bəhanə və qanuni bi əsas yaratmalı idi. Bu zaman Putin Donbas bölgəsindəki rusların irqçiliyə məruz qaldığını və əziyyət çəkdiklərini deyərək özünə haqlı bir səbəb yaratmağa çalışırdı. Buna görə də o bu hadisəni “special military operation” olaraq adlandırdı [United Nations Security Concil, 2022, s.6]. BMT nizamnaməsinin 51-ci maddəsinə dayanaraq bu əməliyyata hüquqi bir zəmin yaratdı.

Ukrayna xalqı bu andan etibarən daim öz vətənlərini müdafiə etmək üçün şücaətlə mübarizə aparırdı. Putin və rus mediası Ukrayna prezidenti Zelenski-ni daim onun keçmiş vəzifəsi barəsində lağa qoyurdu. Zelenski bundan öncə komediya aktyoru idi və müharibə zamanı bu fakt rus mediası tərəfindən daim aktual olaraq paylaşılırdı. Rusiya höküməti müharibədən sonra Zelenskiyə olan dəstəyin azalacağına inanırdı. Lakin Ukrayna prezidenti müharibə zamanı daim əsgərlərin yanında olması və aktiv olaraq sərhəd xəttinə getməsi ordu və xalqı ilə maraqlanması ona olan inamı yüksəltmişdi. Həmin zaman Zalenski Ukrayna xalqı tərəfindən daimi olaraq dəstəklənirdi və xalq öz prezidentlərinin qaçmadığını, onlarla birlikdə mübarizə apardığını gördükdə ona olan inamları daha da yüksəlirdi.

Müharibə ilk başladığı zaman Rusiya intensiv hücumları ilə böyük üstünlük qazanmışdı. Tez bir ərzində Luhansk, Donetsk, Kherson, Zaporizhzhia bölgələrini tam nəzarət altına almışdı. Rusiya həm dənizdən həm qurudan hücum etdiyi üçün Hazırlıqsız Ukrayna ordusuna qarşı zəfər əldə etmişdilər. Digər bir tərəfdən isə mart ayında isə Kiyevdə aktiv hərbi əməliyyat gedirdi. Lakin Ukrayna ordusu Kiyevi uğurla müdafiə etdi və daha sonra əks hücüma yönəldi [BBC News, 2025]. Rusiyanın əsas planlarından biri Kiyevi işğal edərək bu müharibəni tez bir zamanda bitirmək idi. Bu görə də intensiv və sürətli şəkildə hücum edirdilər. Bu zaman isə bir çox problem yaranırdı. İlk öncə Rusiya ordusunun bu sürətli hücumuna nisbətdə kifayət qədər dəstək və qida gəlmirdi. Rusiya zəbt etdiyi yerlərdə düzgün nizam intizam qura bilmirdi. Rusiya ordusu irəlilədiyi zaman artıq arxasındakı torpaqlar azad olunurdu. Bu həm qida və dəstək axışını ləngidir həm də ordunun motivasiyasını azaldırdı. Digər bir tərəfdən Ukrayna xalqı öz vətənlərini müdafiə etmək üçün ölümünə mübarizə aparırdı və bunun qarşılığında Rusiya ordusunun isə bu müharibədə heç bir marağı yox idi. Hətta həmin zaman Rusiya vətəndaşları orduya getməmək üçün öz ayaqlarını qırırdı. Belə bir şəraitdə Kiyevi işğal planı uğursuzluğa düçar oldu.

Bu hadisədən sonra Putin şimali Ukraynadan tamamiylə geri çəkildi. Yalnız Luhansk, Donetsk, Kherson, Zaporizhzhia əraziləri öz nəzarətində saxladı. Bunun bir digər səbəbi isə daxili problemlər idi. Rusiya vətəndaşları müharibənin əlehinə idi və zaman keçdikcə nümayişlər artırtı. Bu əməliyyat zamanı 160000-də çox rusiya əsgəri vəfat etmişdi [BBC News, 2025]. Rusiya xalqı övladlarının hədər yerə ölmələrinə görə etiraz edirdilər. Həmçinin Kiyevin işğal planı uğursuz olduğu andan etibarən bu attrisiya savaşına çevrilmişdi. Yəni heç bir tərəfin qazana bilmədiyi və münaqişənin uzadığı mənasına gələn bir situasiya yarandı. 2022 ci ilin 2-ci yarısıdan etibarən isə Ukayna şimal torpaqları üzərindəki hakimiyyətini yenidən qazanmağa və əks hücum etməyə başladı. Böyük miqdarda maddi və texnoloji yardım ilə Ukrayna ordusu bu torpaqlardakı nəzarətini tez bir zamanda geri qazandı.

Bundan sonra Ukrayna 2023-cü il üçün hazırlaşdırmağa başladı. 2023-cü il üçün əsas məqsədi Dnepr çayı və Xerson şəhərini azad etmək və bu sayədə simvolik bi qələbə qazanmaq idi. Rusiyanın ilk zamandan etibarən Logistik problemləri var idi və Dnepr çayı üzərində yerləşən əsas yolu azad edilməsi ilə Rusiyanı bu barədə çətin vəziyyətə salmaq istəyirdilər. 2023-cü il yay aylarından etibarən bir neçə istiqamətdə əks hücum başladı və bunlardan biri bakhmut ərazisinə idi. Ukrayna bu əməliyyat üçün yüksək dərəcədə hazırlanmışdı. Rusiya ordusu Xerson ərazisində yerləşən su anbarını partlatmışdı və bunun nəticəsi olaraq şəhər sular altında qalmışdı [Psaropoulos, 2023]. Bunun əsas məqsədi Ukrayna ordusunun önünü kəsmək idi və bundan sonra Rusiya ordusu Ukrayna ordusunu artileriya atəşinə tuturdu. Lakin Ukrayna ordusunun yüksək səviyyəli hazırlığı və Dnepr çayı üzərindəki yolu nəzarət altına alması Rusiya ordusunu sıxışdırdı.

Ukrayna ordusu 2023-cü il yay aylarında başlayan əməliyyatlar nəticəsində həm Dnepr çayı üzərindəki əsas yolu həm də Xerson şəhərinin nəzarətini geri qazandılar. Bu qələbə Ukrayna ordusunun və xalqın əhval-ruhiyyəsini yüksəltdi və onlara motivasiya qazandırdı. Lakin bundan başqa Bakhmut istiqamətində gedən döyüşlərin nəticəsidə uğurlu idi. Baxmut Donbas üçün strateji əhəmiyyət malik idi. Baxmut həm lojistik həm də coğrafi olaraq vacib bir yerdi. Donbasın dərinliklərinə gedən yol rolunu oynayır. Ukraynanın buradakı əsas məqsədi Rusiyanın digər bölgələrdəki gücünü bura cəlb etmək və onlara ağır itki vermək idi. Bu zaman hərbi əməliyyatlarda Rusiya tərəfindən əsasən Wagner muzdlu əsgərləri iştirak edirdi. Ümumiyyətlə 21 əsr boyu Rusiya istənilən hərbi qarşıdurmalarda bu qrupdan aktiv şəkildə istifadə edirdi. Hərbi əməliyyatlar zamanı hər iki tərəf ağır itkilər verdi. Rusiya Hərbi əməliyyatlar başladığı andan etibarən Baxmut şəhərini işğal etmək istəyirdi. Bu həm onlar üçün simvolik bir qələbə həm də ordu üçün motivasiya mənbəyi olacaqdı.

Lakin günün sonunda Baxmut şəhəri iki tərəf arasında sərhəd bölgə olaraq qaldı və heç bir tərəf bura tam bir qələbə qazana bilmədi. Bununla belə Ukrayna hərbi əməliyyatların nəticəsində nir çox üstünlükəldə etmişdi [Psaropoulos, 2023]. Ukrayna hökümətinin rəsmi çıxışına görə bir çox strateji yüksəkliklər onların nəzarətində qalmışdı.

Bu əməliyyatların Ukrayna üçün uğurlu keçməsinin bir sıra səbəbləri var idi. İlk öncə ABŞ, Avropa ittifaqı və NATO-nun verdiyi müasir texnoloji hərbi avadanlıqlar idi. Bunlar sayəsində regional müdafiə qura bildi. Bir digər və əsas səbəb isə strategiya idi. Ukrayna tərəfi Rusiya ordusu ilə başa-baş bir müharəbədən qaçdı. Əsasən çevik və kiçik həcmli planlar əsasında hərbi əməliyyatlar təşkil etdi. Bu isə bir çox mövqedə qalib ayrılmasına səbəb oldu. Təbii ki bütün bunlar bir sıra təlim və NATO dəstəyi ilə baş tutdu. Rusiya bir neçə simvolik qələbə qazansada bunların heç bir strateji dayanağı yox idi. Digər bir tərəfdən isə Ukrayna coğrafi əhəmiyyətə malik bölgələri azad etdi. Bunlar Rusiya ordusunun lojistik problemi çəkməsinə səbəb oldu və Ukrayna dövləti üçün manevr imkanı yaratdı.

Bu proses zamanı 21-ci əsrin ən böyük innovasiyalarından biri olan İHA və SİHA texnonolojiyalarının köməyi təbii ki danılmaz rol oynayır. 2023-cü ildə Ukraynanın

qalibiyyətində bu texnoloji silahların roluböyük idi. İlk öncə bu texnologiya vasitəsiylə Ukrayna ordusu itki vermədən bölgədən strateji informasiya toplaya bilirdi. Xerson və Baxmut üçün verilən savaçlar zamanı Ukrayna ordusu bu üstünlük ilə qələbə qazanırdı. Minimum itki ilə maksimum zərər verən SİHA-lar vasitəsiyləUkrayna cəbhə boyu öz üstünlüklərini qoruya bilirdi. Həmçinin bu hadisə Rusiya ordusunda təşviş və demoralizasiya yaradırdı. Rusiya ordusunun həmin vaxt ərzində bu texnologiyaya qarşı heç bir əks cavbı yox idi. Bu həm Türkiyəyə beynəlxalq sferada prestij qazandırdı həm də Ukrayna ordusunun qələbəsinin açarı oldu [Zafra & McClure, 2023].

Müharibə başladığı andan etibarən Rusiya federasiyası müxtəlif sanksiyalar ilə üzləşirdi. İlk öncə Rusiya bankları dərhal SWIFT-dən uzaqlaşdırıldı. SWIFT 1973-cü ildə yaradılan ən vacib maliyyə sistemlərindən biridir. Bu addım ilə Rusiyanı beynəlxalq maliyyə sistemindən uzaqlaşdırmağı və onu qismən təcrid etmək istədilər. Lakin bu prosesdə müəyyən qədər geçikmə baş verdi. Bunun səbəbi isə enerji sahəsindəki struktur idi. Hal hazırda Avropa enerji məsələsində əsasəndə qaz ehtiyacı barəsində Rusiyadan asılıdır. Bu isə hər hansı bir regional və ya beynəlxalq problem zamanı bir çox fərqli fikir yaradır. Bəzi Avropa ölkələri bu asılıqdan narahar olduğu üçün qərarvermə prosesində çətinlik yaratdı [European Council, 2024]. Digər bir tərəfdən isə Avropa Birliyi və ABŞ bir sıra məhsulların Rusiyaya idxalına qadağa qoydu. Həmçinin Rusiyanın yüksək səviyyəli texnoloji alətləri ixrac etməsinin qarşısını almaq üçün bir sıra sanksiyalar tətbiq etdi. Bütün bunlardan sonra bir çox beynəlxalq şirkət Rusiyadakı fəaliyyətlərini dayandırdı. Bunlara aid ən sadə misal Mcdonalds, KFC və ya coca cola olar. Təbiiki bu hadisə daha sonra Rusiyadakı daxili bazarın müəyyən qədər böyüməsinə səbəb oldu. Bu firmaların əvəzinə yerli firmalar yarandı və xalq bu tipli local şirkərlərə dəstəkləmək üçün buralara üz tutdu.

Bundan başqa Rusiyanın bir çox oliqarxlarının aktivləri donduruldu və xaricə səyahətləri qadağan olundu. Bunlara əlavə olaraq Rusiyanin enerji məhsullarının ixracınada qadağa qoyuldu. Bütün bu sanksiya və qadağalar Rusiyada İnflasiya və işsizliyin yüksəlməsinə səbəb oldu. Rusiya yeni ticarət imkanları üçün müxtəlif regionlara üz tutdu. Hindistan və Çin kimi ölkələr ilə müəyyən ticarət razılaşmaları üçün razılıq əldə edilməyə çalışıldı. Lakin bütün bu proses uzun bir müddət tələb edirdi. Çin bazarı Rusiya üçün vacib və qazanclı bir resurs idi. Lakin yeni enerji lahiyələri və boru kəmərlərinin hazərlanması üçün vaxt tələb olunurdu. Hətta Avropa üçün belə Çin və Rusiya əməkdaşlığı təlükəli bir hadisə idi.

2024-cü il ərzində müharibə hələ də davam edirdi. Lakin öncəki illərə nisbətdə geniş miqyaslı müharibələrin sayı az idi. Hər iki tərəf müəyyən vaxt hərbi əməliyyatlar etsədə bu faktiki sərhəd xəttinin statusunu möhkəmləndirdi. Həmçinin bu ikinci dünya müharibəsindən etibarən yaranmış ən böyük müdafiə xətdidir. Bu il ərzində tərəflər nisbətən sakitləşdi. Rusiya artıq geniş miqyaslı hərbi əməliyyatlar etmirdi. Ukrayna Xerson şəhəri üzərində tam nəzarət əldə edə bildi. Lakin bölgədə hələ Rusiyanin nəzarətində qalmış strateji əhəmiyyətə malik zonalar var idi.

**4.Rusiya-Ukrayna müharibəsində ABŞ-ın rolu**

Rusiya-Ukrayna münaqişəsində ABŞ daim vacib bir rola malik olmuşdur. ABŞ mövqeyinə əsasən iki dövlət arasındakı münasibətin strukturu müəyyələşir. 2016-ci ildə ABŞ daxilində işsizliyin artması və iqtisadi problemlər Trumpın prezident olaraq seçilməsinə böyük təsir etdi. O ABŞ tarixinin ən qeyri-adi prezidentlərindən biri idi. Lakin Trumpın birinci prezidentlik dövrü onun üçün uğurlu keçmədi. Korona virus, səhiyyə problemləri, artan işsizlik və daha bir çox problem onun 2020-ci ildəki prezidenlik seçimində uğursuz olmasının əsas səbəbi idi. Digər bir səbəb isə Trumpın ABŞ idarəetmə prinsipin daim qazanc və ziyan prinsipinə dayanması idi. Bu isə bəzən güclü ABŞ imicinə zərər verirdi.

2021-ci ildən etibarən Joe Biden Prezident kimi fəaliyyətinə başladı. Rusiya-Ukrayna müharibəsi başladığından etibarən daim iqtisadi, siyasi və hərbi yardımlar edərək Ukraynanın ayağda qalmasına kömək göstərdi. Həmçinin Avropa Birliyi vı NATO ilə bu minvalda əməkdaşlıq etdi. Bu dövr zamanı iki dövlət arasındakı münasibətlər əsasən hərbi yolla tənzimlənirdi. Rusiya və Ukrayna arasındakı əlaqe gün keçdikcə gərginləşir və iki dövlət intensiv yollarla bir-biri ilə rəqabət aparırdı. Digər tərəfdən Biden İllər sonra Amerikanı Əfqanıstandan geri çəkdi.

Lakin bütün bunlara baxmayaraq Amerika xalqı üçün Bidenın prezidenlik illəri uğursuzluq idi.Bunların əsas səbəbi Amerikanın illərdir davam iqtisadi problemlərinin intensivləşməsi. Digər bir tərəfdən Biden həddindən artıq yaşlı idi və bu onun güclü lider imici yaratmasının qarşısını alırdı. Həmçinin Ukraynaya edilən böyük həcmli maddi yardımlar cəmiyyət tərəfindən birmənalı qarşılanmırdı. Nəhayət Trump ikinci dəfə Amerika prezidenliyinə namizədliyini verdi və qalib gəldi. Bu zaman Trumpın vəədlərindən biri Rusiya və Ukrayna münaqişəsini həll etmək idi. Çünki xalq ABŞ dövlətinin böyük həcmli yardımlarına qarşı idi. Bütün bundan sonra iki dövlət arasındakı danışıqlar və münaqişənin həlli istiqamətində atılan addımlar artmağa başladı. Trump bu danışıqlar vasitəsiylə həm lider kimi öz prestijini tüksəldir həm də xalq arasında dəstək toplayırdı.

2024-cü ildə Trump ikinci dəfə ABŞ prezidenti seçildikdən sonra Amerika aktiv olaraq Rusiya-Ukrayna arasındakı danışıqlar prosesinə vasitəçilik edir və Bir çox görüş tərtib edilir. Trump-ın buradakı əsas məqsədi münaqişəni sülh yolu ilə həll etmək və ABŞ-Rusiya münasibətini yenidən bərpa etməkdir. Rusiya tərəfi bu münaqişə zamanı bir çox iqtisadi,siyasi, sosial və hərbi itkilərə məruz qaldı. Rusiyada işsizlik və inflasiya kəskin sürətdə artmış və xalq etiraz üçün nümayişlər keçirməyə başlamışdı. Lakin bununla belə Rusiya bu məsələdən qalib olaraq ayrılmaq istəyir və bunun üçün danışıqlar mərhələsini uzadır [Grace, 2025]. Bir çox müsahibədə Putin Rusiyanın qalibiyyətərini şişirdirdi. Hətta Rusiyanın iqtisadi vəziyyətinin kifayət qədər yaxşı olduğunu qeyd edirdi.

Digər tərəfdən isə Ukrayna müharibəni davam ettirmək üçün Avropa ölkələrindən dəstək tələb edirdi. Avropa birliyi bu zaman Ukraynanı həm danışıqlar prosesində həm də müharibə şəraitində dəstəkləyir. Ukrayna Avropa və Rusiya arasında bir sərhəd mövqeyi görür hal hazırda. Buna görə də onlar Ukraynanın işğalına və ya məğlubiyyətinə imkan verə bilməzlər.

Danışıqlar zamanı Ukrayna daim absürd tələblər ilə üz-üzə gəlirdi. Günümüzdə Ukraynda iqtisadi və sosial olaraq məhv olmuş vəziyyətdədir. Digər bir tərəfdən isə davamlı raket və artileriya atəşlərinə görə ölkə dağıtılar altında qalıb. Bütün infrastruktur məhv olub. Buna görə də Ukrayna tərəfi üçün sülh prosesi həyati bir əhəmiyyətə malikdi.

Rusiyanın danışıqlar zamanı əsas tələblərindən biri Ukrayna torpaqlarının bəzilərinə müstəqillik verməsidir. Zelenski isə bu tələbə tamamiylə qarşıdır. Danışıqlar çərçivəsində atılmış ən böyük addımlardan biri 2025 28 fevral tarixində Trump və Zelenski arasında baş tutmuş görüş idi [Wittenberg, 2025]. Görüş hər nə qədər müsbət başlasada daha sonra zelenskiyə qarşı yönəldilən təzyiqlər ilə uğursuz olaraq nəticələnmişdi. Görüş zamanı Zelenskiyə qeyri-real tələblər və ya ittihamlar yönəldilmişdi. Bu görüş Amerikanın əsas məqsədinin Ukraynanın təbii resursları olduğu və bu məqsədlə Rusiya ilə müəyyən qədər əməkdaşlıq etdikləri görünürdü.

## 5.REFERENCES

**1.** Adrienne. (2022). 2022 Russian invasion of Ukraine. *EBSCO Research Starters*. https://www.ebsco.com/research-starters/military-history-and-science/2022-russian-invasion-ukraine (in English)

2. Wivel, A. (2011). Security dilemma. In B. Badie, D. Berg-Schlosser, & L. Morlino (Eds.), *International Encyclopedia of Political Science* (pp. 2389–2391). Sage Publications. https://www.researchgate.net/publication/320211391_Security_dilemma (in English)
3. BBC Bitesize. (2021, July 14). The end of the Cold War. *BBC Bitesize*. https://www.bbc.co.uk/bitesize/articles/zvgptrd (in English)
4. The Editors of Encyclopaedia Britannica. (2022). The crisis in Crimea and eastern Ukraine. *Encyclopaedia Britannica*. https://www.britannica.com/place/Ukraine/The-crisis-in-Crimea-and-eastern-Ukraine (in English)
5. Conant, E. (2023, February 24). Russia and Ukraine: the tangled history that connects—and divides—them *National Geographic*. https://www.nationalgeographic.com/history/article/russia-and-ukraine-the-tangled-history-that-connects-and-divides-them (in English)
6. European Council. (2024). Russia's war against Ukraine: EU sanctions. *Consilium*. https://www.consilium.europa.eu/en/policies/sanctions-against-russia/ (in English)
7. Grace, A. (2025, December 20). Russian offensive campaign assessment, December 19, 2025. *Institute for the Study of War*. https://understandingwar.org/research/russia-ukraine/russian-offensive-campaign-assessment-december-19-2025 (in English)
8. Lieven, A. (2011, November 29). The Cold War and the post–Cold War world. *Russia in Global Affairs*. https://eng.globalaffairs.ru/articles/the-cold-war-and-the-post-cold-war-world/ (in English)
9. Psaropoulos, J. T. (2023, August 17). Ukraine probes Kherson defences, advances in east and south. *Al Jazeera*. https://www.aljazeera.com/news/2023/8/17/ukraine-probes-kherson-defences-advances-in-east-and-south (in English)
10. BBC News Visual Journalism Team. (2025, May 7). Ukraine in maps: Tracking the war with Russia. *BBC News*. https://www.bbc.com/news/articles/c0l0k4389g2o (in English)
11. United Nations Security Council. (2022). Letter dated 28 February 2022 from the Permanent Representative of the Russian Federation to the United Nations addressed to the Secretary-General (S/2022/154). *United Nations Security Council*. https://docs.un.org/en/S/2022/154 (in English)
12. Waterhouse, B. C. (2022, October 17). Donald Trump: Impact and legacy. *Miller Center*. https://millercenter.org/president/trump/impact-and-legacy (in English)
13. Wittenberg, D. (2025, February 28). Trump–Zelensky: What it was like in the room during shouting match. *BBC News*. https://www.bbc.com/news/articles/c2019j0w9gl (in English)
14. Zafra, M., & McClure, J. (2023, June 26). Mapping Ukraine’s counteroffensive. *Reuters*. https://www.reuters.com/graphics/UKRAINE-CRISIS/MAPS/klvygwawavg/ (in English)

## ƏDƏBİYYAT

1. Adrienne. (2022). 2022 Russian invasion of Ukraine. *EBSCO Research Starters*. https://www.ebsco.com/research-starters/military-history-and-science/2022-russian-invasion-ukraine
2. Wivel, A. (2011). *Security dilemma*. In B. Badie, D. Berg-Schlosser, & L. Morlino (Eds.), *International Encyclopedia of Political Science* (pp.2389-91). Sage Publications. https://www.researchgate.net/publication/320211391_Security_dilemma
3. BBC Bitesize. (2021, July 14). The end of the Cold War. *BBC Bitesize*. https://www.bbc.co.uk/bitesize/articles/zvgptrd

4. The Editors of Encyclopaedia Britannica. (2022). The crisis in Crimea and eastern Ukraine. *Encyclopaedia Britannica*. https://www.britannica.com/place/Ukraine/The-crisis-in-Crimea-and-eastern-Ukraine
5. Conant, E. (2023, February 24). Russia and Ukraine: The tangled history that connects—and divides—them. *National Geographic*. https://www.nationalgeographic.com/history/article/russia-and-ukraine-the-tangled-history-that-connects-and-divides-them
6. European Council. (2024). Russia's war against Ukraine: EU sanctions. *Consilium*. https://www.consilium.europa.eu/en/policies/sanctions-against-russia/
7. Grace, A. (2025, December 20). Russian offensive campaign assessment, December 19, 2025. *Institute for the Study of War*. https://understandingwar.org/research/russia-ukraine/russian-offensive-campaign-assessment-december-19-2025/
8. Lieven, A. (2011, November 29). The Cold War and the post–Cold War world. *Russia in Global Affairs*. https://eng.globalaffairs.ru/articles/the-cold-war-and-the-post-cold-war-world/
9. Psaropoulos, J. T. (2023, August 17*)*. Ukraine probes Kherson defences, advances in east and south. *Al Jazeera*. https://www.aljazeera.com/news/2023/8/17/ukraine-probes-kherson-defences-advances-in-east-and-south
10. BBC News Visual Journalism Team. (2025, May 7). Ukraine in maps: Tracking the war with Russia. *BBC News*. https://www.bbc.com/news/articles/c0l0k4389g2o
11. United Nations Security Council. (2022). Letter dated 28 February 2022 from the Permanent Representative of the Russian Federation to the United Nations addressed to the Secretary-General (S/2022/154). *United Nations, Security Council.* https://docs.un.org/en/S/2022/154
12. Waterhouse, B. C. (2022, October 17). Donald Trump: Impact and legacy. *Miller Center*. https://millercenter.org/president/trump/impact-and-legacy
13. Wittenberg, D. (2025, February 28). Trump–Zelensky: What it was like in the room during shouting match. *BBC News*. https://www.bbc.com/news/articles/c2019j0w9gl
14. Zafra, M., & McClure, J. (2023, June 26). Mapping Ukraine’s counteroffensive. *Reuters*. https://www.reuters.com/graphics/UKRAINE-CRISIS/MAPS/klvygwawavg/